# Müstəqil medianın yüksəliş dövrü



*Əsası 150 il öncə qoyulan milli mətbuatımız bu gün dərin tarixi köklərə, zəngin inkişaf mərhələlərinə və dövlətçilik baxımından strateji önəmə malik olan mütərəqqi dəyərlərə söykənir. Milli mətbuatımızın 150 illik yubileyinin qeyd olunduğu bu mərhələdə, Ulu Öndərin mətbuat siyasətinə verdiyi töhfələr yenidən dəyərləndirilir, onun siyasi irsi ölkədə söz və fikir azadlığının təminatçısı kimi böyük əhəmiyyət daşıyır. Bu, eyni zamanda, medianın cəmiyyətə xidmət missiyasını daha da gücləndirmək üçün bir çağırışdır. Gələcəyin mətbuatı keçmişin irsinə söykənərək, indinin tələbləri əsasında öz yolunu müəyyən edir.*

Bu müqəddəs yolun yeni dövrdə uğurla davam etdirilməsi, söz azadlığının cəmiyyətin aparıcı dayağına çevrilməsi, milli mətbuatın müstəqil fikir tribunası səviyyəsinə yüksəlməsi isə məhz Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və qətiyyətli qərarları ilə mümkün olub. Ulu Öndər həyat və fəaliyyətinin bütün mərhələlərində mətbuata xüsusi əhəmiyyət verib. Onun baxışlarında mətbuat sadəcə məlumat ötürən mexanizm deyil, ictimai şüuru formalaşdıran, milli dirçəlişi möhkəmləndirən, insanları maarifləndirən bir ideoloji vasitə idi. Dahi şəxsiyyət bu sahənin inkişafını daim diqqətdə saxlayıb, zamanın tələblərinə uyğun hüquqi və institusional əsaslar formalaşdırıb.

Prezident Heydər Əliyevin 1998-ci ilin 6 avqustunda imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman ölkənin ictimai-siyasi həyatında dönüş nöqtəsi hesab olunur. Bu mühüm sənəd vasitəsilə mətbuatın qarşısında duran süni maneələr aradan qaldırılıb, medianın sərbəst fəaliyyəti üçün hüquqi zəmin təmin olunub. Senzuranın ləğvini rəsmiləşdirən tarixi qərar, əslində, cəmiyyətin demokratikləşməsi yolunda atılmış cəsarətli addım idi. Artıq jurnalist qələmi azad nəfəs almağa başlamış, qəzet səhifələrində yeni bir epoxanın nəfəsi duyulmuşdu. Cəmiyyət həyatının güzgüsünə çevrilən mətbuat vətəndaş cəmiyyətinin təməllərini möhkəmləndirən önəmli qüvvəyə çevrildi. Bir il sonra - 1999-cu ilin 7 dekabr tarixində qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" Qanun isə bu sahədə hüquqi münasibətləri sistemli şəkildə tənzimləyən əsas sənəd oldu. Həmin qanun vasitəsilə informasiya istehsalı və yayımı ilə məşğul olan media orqanlarının hüquqları, vəzifələri, fəaliyyət prinsipləri müəyyənləşdirildi. Beləliklə, mətbuat institutunun cəmiyyətdəki yeri və rolu tam şəkildə hüquqi status qazandı. Azərbaycan Konstitusiyasında təsbit edilən söz və fikir azadlığı prinsipləri məhz bu hüquqi zəminlə daha da möhkəmləndi.

Ümummilli liderin bu sahəyə olan münasibəti məsuliyyət və ictimai öhdəliklərlə dolu idi. Onun dediyi fikirlər bu gün də jurnalistlərin fəaliyyət yolunu işıqlandırır: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. O, həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir". Məhz bu strateji baxış sayəsində Azərbaycan mətbuatı tədricən ictimai rəyə təsir imkanlarını genişləndirdi. Bu gün milli mətbuatımız ölkənin siyasi və mənəvi dirçəlişində, vətəndaş cəmiyyətinin formalaşmasında, şəffaflığın təmin olunmasında, sözün və həqiqətin müdafiəsində öndə gedir.

Xüsusi vurğulanmalıdır ki, medianın inkişafı, milli mətbuatımızın daha da güclənməsi naminə görülən işlər Prezident İlham Əliyevin hakimiyyəti illərində də davam etdirilir. Ölkənin müxtəlif mərhələlərində - istər ictimai-siyasi sabitlik dövrlərində, istərsə də milli təhlükəsizlik çağırışlarının ön plana çıxdığı zamanlarda mətbuata olan diqqəti əsla zəifləməyib. Əksinə, bu sahənin institusional əsaslarının gücləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması və medianın cəmiyyət həyatında daha çevik rol oynaması üçün məqsədyönlü addımlar atılıb.

Azərbaycanın müasir tarixində mətbuat azadlığının möhkəmləndirilməsi və sözün dəyərinin qorunması yolunda atılan mühüm addımlar Prezident İlham Əliyevin siyasi iradəsi ilə birbaşa bağlıdır. Dövlət başçısının həyata keçirdiyi ardıcıl və uzaqgörən media siyasəti, əslində, demokratik dövlətçilik ənənələrinin möhkəmlənməsinə xidmət edən strateji xəttin tərkib hissəsidir. Azərbaycan öz inkişaf yolunda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna sadiqliyini praktik addımlarla sübut etdiyi kimi, bu prosesdə medianın rolu da yüksək dəyərləndirilib. Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk gündən söz və mətbuat azadlığını müasir dövlətçilik modelinin ayrılmaz elementi olaraq tanıyıb. Dövlət başçısının bu sahəyə olan həssas münasibəti zaman-zaman konkret qərarlarla, əhatəli islahatlarla və sistemli dəstək mexanizmləri ilə müşayiət olunub. Məhz bu qətiyyətli iradə nəticəsində Azərbaycanın müstəqil mediası hüquqi, institusional və sosial əsaslar üzərində daha da möhkəmləndi. 2005-ci ildə milli mətbuatın yaranmasının 130 illiyi münasibətilə 140-dan artıq jurnalistin fəxri ad və digər dövlət mükafatları ilə təltif olunması mətbuata verilən dəyərin bariz nümunəsi oldu. Həmin dövrdə "Əməkdar jurnalist" fəxri adının bərpası isə peşəkar medianın təşviqinə, ictimai etimadın möhkəmlənməsinə xidmət edən simvolik və siyasi baxımdan əhəmiyyətli addım oldu. Bu, eyni zamanda, jurnalistikanın cəmiyyət həyatında oynadığı rola verilən rəsmi dəyərin ifadəsi idi.

2006-cı ilin 8 fevralında imzalanan Sərəncam isə mətbuat sahəsində maliyyə yükünün azaldılması baxımından mühüm dönüş nöqtəsi oldu. Qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının tamamilə silinməsi azad sözün inkişafına verilən əsl töhfə idi. Bu addım jurnalistlərin və redaksiyaların fəaliyyət azadlığını genişləndirməklə yanaşı, onların gündəlik mövcudluq uğrunda mübarizəsini yüngülləşdirdi və yaradıcı enerjinin daha məhsuldar şəkildə cəmiyyətə yönəlməsinə şərait yaratdı.

Prezident İlham Əliyev medianın hüquqi bazasının təkmilləşdirilməsinə də xüsusi diqqət yetirib. 2005-ci ildə qəbul olunan "İnformasiya əldə etmək haqqında" Qanun vətəndaşların məlumat almaq hüququnu genişləndirərək, şəffaf və açıq cəmiyyət quruculuğu yolunda mühüm bir sənədə çevrildi. 2010-cu ildə qəbul edilən "Elektron media haqqında" Qanun isə texnoloji çağırışlara cavab verən mütərəqqi bir yanaşma nümunəsi idi. Bu qanunla media sahəsində innovativ inkişaf, çevik və rəqəmsal platformaların hüquqi tənzimi daha da konkretləşdirildi. Bununla yanaşı, 2018-ci ilin 16 iyul tarixində imzalanan Sərəncamla qəzetlərə göstərilən maliyyə dəstəyi bu sahədəki davamlı siyasətin daha bir nümunəsi oldu. Dövlət yalnız prinsipial siyasi xətti ilə deyil, həm də real dəstək mexanizmləri ilə media cameəsinin yanında olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyev fəaliyyəti dövründə mətbuata münasibətdə daim əminliklə vurğulayıb ki, bu sahənin inkişafı cəmiyyətin düşünən təbəqəsinin, azad fikir daşıyıcılarının daha fəal şəkildə formalaşmasına yol açır. Bu yanaşma isə informasiya məkanında Azərbaycanın nüfuzunun artırılmasına, milli maraqların informasiya müharibəsində daha mütəşəkkil formada qorunmasına mühüm töhfə verir.

Prezident İlham Əliyevin 2021-ci il yanvarın 12-də imzaladığı "Media sahəsində islahatların daha da dərinləşdirilməsi haqqında" Fərmanı bu prinsiplərin hər birini özündə cəmləşdirir. Fərman ayrı-ayrı istiqamətlərin deyil, ümumilikdə media mühitinin yeniləşdirilməsini ehtiva edir. Paralel olaraq, jurnalistlərin sosial durumunu və statuslarını da diqqətə alır. Son islahatların nəticəsi olaraq, Azərbaycan informasiya məkanı həm də struktur tərtibatı baxımından yenilənir. Dəyişiklik dövlətin kommunikasiya işinə cavabdeh olan müvafiq strukturlarından başlayaraq, medianın özünütənzimləmə qurumlarına qədər ən geniş spektiri əhatə edir. "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Prezident Fərmanına əsasən, 2021-ci ildə Medianın İnkişafı Agentliyi yaradılıb. 2022-ci ildə isə Audiovizual Şura yeni tərtibatda formalaşdırılıb. Bu dönəmdə həm də Azərbaycan jurnalistlərinin yeni qurultayı keçirilib. Şuranın tərkibi yeniləşdirilib Gələcəyə yönəlik bu strateji addım yeni institutların təşəkkül tapmasına, funksional mexanizmlərin tətbiqinə və jurnalist əməyinin daha dəyərli şəkildə qiymətləndirilməsinə xidmət edir. Bu sərəncam həm də Azərbaycan mediasının beynəlxalq informasiya məkanında daha güclü mövqe tutması, rəqabətə davamlı kontent istehsal etməsi və çağdaş texnoloji trendlərlə ayaqlaşması üçün stimulverici baza yaradır.

Prezident İlham Əliyevin medianı dəstəkləyən bu siyasəti milli ideoloji dirənişin, ictimai həmrəyliyin və dövlətin maraqlarının ifadəsi olması fikrindən qaynaqlanır. Azərbaycan jurnalistikasının qarşısında yeni dövrün çağırışları dayanır və bu çağırışlara cavab vermək üçün dövlətin verdiyi dəstək qətiyyətlidir. Məhz belə bir kontekstdə Milli mətbuatın 150 illik yubileyi yalnız retrospektiv xatırlama deyil, həm də gələcəyin konturlarını müəyyən edən, yeni mərhələnin başlanğıcını bildirən önəmli bir dönüm nöqtəsidir.

Milli mətbuatımızın 150 illik yubileyi bir daha sübut edir ki, müasir Azərbaycan dövlətinin mətbuata olan münasibəti strateji baxışın təcəssümüdür. Dövlətin yaratdığı münbit şərait, göstərdiyi diqqət və ardıcıl siyasət nəticəsində Azərbaycan mediası bu gün regional miqyasda sözünü deyən, qlobal informasiya məkanında isə getdikcə daha qabarıq görünən güclü bir instituta çevrilməkdədir.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 22 iyul (№ 149).- S.14.